**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**ELMİN İNKİŞAFI FONDU**

Bakı şəhəri 17 oktyabr 2018-ci il

# Azərbaycanda aqrar sahədə aparılan əhəmiyyətli elmi araşdırma və tədqiqatların dəstəklənməsinə yönəlmiş layihələrin qrantlar yolu ilə maliyyələşdirilməsi üçün Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun “Aqrar tədqiqatlar” məqsədli qrant müsabiqəsinin keçirilməsi haqqında

## E L A N

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (bundan sonra: “Elmin İnkişafı Fondu” adlandırılacaqdır) əsas qrant müsabiqələri ilə yanaşı, müxtəlif xarakterli qrant müsabiqələri də təşkil edərək keçirir. Fondun fəaliyyətinə müvafiq olan, həmçinin müxtəlif Dövlət proqramlarında iştirakı, əməkdaşlıq haqqında saziş və protokolları əhatə edən “İKT qrantı”, “Sənaye qrantı”, “Universitet qrantı” və digər məqsədli müsabiqələr üzrə layihələr uğurla icra olunmuşdur.

Son illər Azərbaycanda qeyri-neft sektorunun inkişafına dövlət başçısı tərəfindən xüsusi diqqət göstərilir. İqtisadiyyatın aparıcı sahələrindən olan kənd təsərrüfatı sistemində ciddi islahatlar aparılır, innovativ yanaşma və texnologiyalar tətbiq edilir, həm fundamental,

həm də tətbiqi xarakterli elmi-tədqiqat işlərinin effektivliyinin artırılması, kadr hazırlığı və beynəlxalq əlaqələrin inkişafı, təcrübə mübadiləsi üçün geniş imkanlar yaradılır. Əsasən elmi əsaslara söykənən bu kimi məsələlərin həllində müxtəlif dövlət qurumları əməkdaşlıq edir və bu fəaliyyəti uğurla koordinasiya edirlər. 2018-ci il 6 mart tarixində Elmin İnkişafı Fondu və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında imzalanmış Əməkdaşlıq Protokolu da bu məqsədlərə xidmət edir.

Elmin İnkişafı Fondunun təşkil edərək keçirdiyi müxtəlif qrant müsabiqələrində akademik və təhsil müəssisələri ilə yanaşı, aqrar istiqamət üzrə fəaliyyət göstərən sahə elmi-tədqiqat institutlarının alim və mütəxəssisləri də müstəqil şəkildə və ya yaradıcı kollektiv tərkibində uğurla iştirak edirlər. Göstərilən elm sahəsi üzrə əhəmiyyətli nəticələrə nail olunması üçün xüsusi qrant müsabiqəsinin keçirilməsi nəzərəçarpacaq nailiyyətlərin əldə edilməsinə imkan yarada bilər.

Elmi tədqiqatların qrantlar yolu ilə maliyyələşdirilməsinin effektivliyi nəzərə alınmaqla, ölkənin sahə elmi-tədqiqat institutları, akademik qurumları və ali təhsil müəssisələrində aqrar elmlər sahəsində aparılan, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən fundamental, tətbiqi və innovasiya xarakterli elmi araşdırma və tədqiqatların daha yüksək səviyyədə və koordinasiya olunmuş şəkildə dəstəklənməsinə, elmi fəaliyyətin stimullaşdırılması və alimlərə əlavə yaradıcılıq imkanı yaradılmasına yönəlmiş, təbiət, texniki, humanitar və ictimai elmlər sahələrində bir elmi mövzu (problem) ətrafında müvəqqəti yaradılmış və elmi fəaliyyətlə əlaqəli müxtəlif elmi müəssisə və təşkilatlardan olan alimlərin yaradıcı kollektivlərinin layihələrinin maliyyələşdirilməsi məqsədi ilə Elmin İnkişafı Fondu "Aqrar tədqiqatlar" məqsədli qrant müsabiqəsini (EİF/MQM/Aqrar-1-2018-1(31)) aşağıda göstərilən elmi prioritetlərə uyğun olaraq və müvafiq şərtlər daxilində

ELAN EDİR:

**Müsabiqənin məqsədi:**

Müsabiqə sahə elmi-tədqiqat institutlarının, akademik və ali təhsil sistemindəki elmi müəssisə və təşkilatların, institut va laboratoriyaların, bölmə və mərkəzlərin və digər uyğun strukturların elmi fəaliyyətini stimullaşdırmaq, modern elmi cihaz, avadanlıq və qurğularla təminatını təkmilləşdirmək, aqrar elmin ayrıca götürülmüş istiqamətlərinin inkişafını əlavə olaraq dəstəkləmək, kadr hazırlığını təmin etmək üçün adıçəkilən qurumlardan olan alim və yüksək ixtisaslı mütəxəssislərin müvəqqəti yaradılmış elmi-yaradıcı kollektivləri tərəfindən təqdim edilmiş müxtəlif xarakterli layihələrin qrantlar verilməsi yolu ilə maliyyələşdirilməsi məqsədi ilə keçirilir. Müsabiqə aqrar elm sahəsində multidissiplinar və beynəlxalq araşdırmaların dəstəklənməsinə, qısa müddət ərzində rəqabət apara biləcək elmi nəticələrin alınmasına əlavə şərait yaradacaqdır. Layihələrdə maliyyə (stimullaşdırıcı əmək haqqı) və maddi-texniki təminatla (cihazlar, qurğular və avadanlıqlar) yanaşı, paralel olaraq kadr hazırlığı (ezamiyyətlər yolu ilə) da nəzərdə tutulur.

**Layihələrin növləri və maliyyələşdirilmə həcmi:**

- Fundamental, tətbiqi, eksperimental, akademik, empirik, innovativ, nəzəri xarakterli layihələr;
- 300 000 manatadək maliyyə həcmli layihələr.

**Müsabiqənin prioritet istiqamətləri:**

"Elm haqqında" Azərbaycan Respublikasının Qanununda (maddə 3) göstərilmiş prioritetlər üzrə təqdim edilən layihələrə, həmçinin aşağıda göstərilən öncül istiqamətlərə üstünlük veriləcəkdir:

- Aqrar sahənin inkişafının dövlət tənzimlənməsi məsələləri; Regionların davamlı sosial-iqtisadi inkişafında aqrar sahənin rolunun artırılması; Kənd təsərrüfatında kiçik və orta sahibkarlığın inkişafı problemləri, dövlət-biznes münasibətləri; Aqrobiznes və marketinq məsələləri;
- Kənd təsərrüfatı məhsullarının istehsalı və emalında innovativ yanaşma və texnologiyaların tətbiqi;
- Ərzaq təhlükəsizliyi, taxılçılığın, sitrus meyvəçiliyinin, çayçılığın, çəltikçiliyin, ipəkçiliyin, pambıqçılığın elmi problemləri;
- Biomüxtəlifllik və ondan səmərəli istifadənin yeni texnologiya və sistemlərinin işlənilib hazırlanması;
- Torpaq və su ehtiyatlarının kompleks şəkildə müasir (kosmik peyk təsvirləri və s.) üsullarla qiymətləndirilməsi, elektron bazaların/xəritələrin yaradılması, bu ehtiyatların qorunması, bərpası və yaxşılaşdırılması problemləri, əkinçiliyin adaptiv-landşaft sistemləri;
- Prioritet mədəni bitkilərin və kənd təsərrüfatı heyvanlarının müasir yanaşmalarla (DNT, omiks texnologiyaları və s.) yaxşılaşdırılması məsələləri;
- Aqrobiotexnologiyalar; Bioyanacaq və bioenerji problemləri;
- Aqromühəndislikdə nanotexnologiyaların və nanomaterialların tətbiqi, immungücləndirici, boystimullaşdırıcı, antifitopatogen və s. biopreparatların yaradılması və tətbiqi məsələləri;
- Kənd təsərrüfatı bitki və heyvanlarının zərərverici və xəstəliklərə qarşı inteqrativ müdafiə sistemləri, məhsuldarlığının yüksəldilməsində mikrobioloji və immunogenetik modellər;
- Yemçiliyin inkişaf etdirilməsi, təbii otlaqların qiymətləndirilməsi, mühafizəsi, bərpası və səmərəli istifadəsi məsələləri;
- Ölkənin aqroiqlim ehtiyatlarının müasir üsullarla kompleks qiymətləndirilməsi və proqnozlaşdırılması; İqlim dəyişikliklərinin aqrobiomüxtəlifliyə və kənd təsərrüfatı sistemlərinə təsiri; Ekoloji problemlərin və müxtəlif fiziki proseslərin kənd təsərrüfatına təsiri;

- Kənd təsərrüfatı sahəsində çalışan işçilərin əməyinin mühafizəsi və müalicə-profilaktikası işinin təşkilinin elmi problemləri.

**Müsabiqənin keçirilmə müddəti:**

- Müsabiqədə iştirak etmək üçün layihələr 2018-ci il 22 oktyabr tarixindən başlayaraq qəbul olunur;
- Müsabiqədə iştirak etmək üçün layihələrin qəbulu üçün son tarix 2018-ci il 21 dekabr saat 17:00-dır;
- Müsabiqənin nəticələrinin 2019-cu ilin 1-ci yarısında açıqlanması planlaşdırılır.

**Cari müsabiqənin keçirilməsinin əsas prinsipləri:**

1. Bu qrantlar yalnız müvəqqəti olaraq yaradılmış elmi yaradıcı kollektivlər tərəfindən təqdim edilmiş layihələrə verilir.
2. Qrant layihəsi ilə müsabiqədə iştirak etmək istəyən alimlər layihənin təqdimindən əvvəl müzakirələr aparmalı, qrant layihəsinin mövzusunu, şərtlərini və digər müvafiq məsələləri qarşılıqlı şəkildə razılaşdırmalıdırlar.
3. Müsabiqəyə təqdim edilən hər bir layihə həmin layihə üzrə rəhbərlə təmsil olunmalıdır.
4. Müsabiqəyə orta saylı (layihə rəhbəri və icraçılar daxil olmaqla 10 nəfərədək) müvəqqəti yaradıcı kollektivlər tərəfindən həyata keçirilməsi nəzərdə tutulan layihələr qəbul olunur.
5. Layihə rəhbəri və icraçılar kifayət qədər təcrübəli, beynəlxalq əlaqələrə malik, nüfuzlu elmi nəşrlərdə dərc olunmuş məqalələri olan alimlər olmalıdırlar.
6. Layihənin icra müddəti 2 ildən artıq olmamalıdır.
7. Elmi-tədqiqat qurumlarının planları üzrə mövzunun layihədə bilavasitə təkrarlanmasına yol verilmir.
8. Elmin İnkişafı Fondu tərəfindən əvvəlki müsabiqələr üzrə maliyyələşdirilmiş və hal-hazırda maliyyələşdirilən, həmçinin digər fond və qurumlar tərəfindən maliyyələşdirilən mövzular üzrə layihələr müsabiqəyə qəbul olunmur.
9. **Elmin İnkişafı Fondunun cari qrant layihələrinin rəhbər və icraçıları, bir qayda olaraq, bu müsabiqədə iştirak edə bilməzlər.**
10. **Cari müsabiqədə hər bir şəxs yalnız bir layihə üzrə qrant iddiaçısı ola bilər (rəhbər və ya icraçı qismində).**
11. Müsabiqəyə təqdim olunmuş layihələr qaydalara uyğun olaraq texniki və elmi ekspertiza mərhələlərindən keçir.
12. Müsabiqəyə təqdim edilmiş bütün layihələrin ideyasının obyektiv formada orijinal ifadəsi müəlliflik hüququnun obyekti kimi Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində qeydiyyatdan keçiriləcəkdir.

13. Müsabiqənin nəticələrinə görə qalib gəlmiş layihələrin rəhbərləri ilə Fond arasında layihənin icrası üzrə müqavilə bağlanılır və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçirilir.
14. Müsabiqədə iştirakın digər mühüm şərtləri:
    - tətbiqi xarakterli;
    - multidissiplinar tədqiqatlar üzrə təqdim olunmuş;
    - beynəlxalq əməkdaşlıq çərçivəsində yerinə yetirilməsi planlaşdırılan;
    - gənclərin və regionlardan olan alim və mütəxəssislərin iştirak etdiyi;
    - müxtəlif sahə elmi-tədqiqat institutlarından, akademik və təhsil qurumlarından olan alim və mütəxəssislər tərəfindən yerinə yetirilməsi planlaşdırılan tədqiqat mövzuları üzrə təqdim olunmuş layihələrə elmi ekspertizanın nəticələri əsasında seçim zamanı üstünlük veriləcəkdir.
15. Qrant layihəsi çərçivəsində elmi məqsədlər üçün tələb olunan əsas vəsaitlər (elmi cihazlar, avadanlıq və qurğular, elmi fəaliyyət üçün məmulatlar, ləvazimat və qeyri-maddi aktivlər və s.), iş və xidmətlər layihənin ümumi büdcəsinin 35%-dən (vergi və rüsumlar daxil olmaqla), ezamiyyətlər isə 10%-dən artıq ola bilməz.
16. Müsabiqədə iştirak üçün layihə rəhbərinin çalışdığı müvafiq qurumun rəhbərliyinin elmi əsaslandırılmış təqdimatı tələb olunur və təqdimat e-QRANT ilə yanaşı, kağız üzərində də ayrıca olaraq Fonda təqdim edilməlidir. Təqdimat formal olaraq yazılmamalı və təqdim olunan layihənin elmi-təcrübi əhəmiyyəti, gözlənilən nəticələri və elmin inkişafına verə biləcəyi töhfələr qısa, lakin dolğun şəkildə açıqlanmalıdır.

**Layihələrin tərtibatı və təqdim olunması:**

Bu müsabiqəyə layihələr yalnız Elmin İnkişafı Fondunun yaratdığı innovativ texnologiya olan **“e-QRANT”=“Qrant layihələrinin Elektron İdarəolunması Sistemi”** (http://e-grant.sdf.gov.az/) vasitəsilə təqdim edilə bilər. Bu sistem elektron-hökumət prinsipləri əsasında qurulmuşdur və “ASAN-İmza”dan istifadəni nəzərdə tutur. Nəzərə almaq lazımdır ki, “e-QRANT” sistemindən istifadə cari və sonrakı müsabiqələrdə iştirakı xeyli sadələşdirir və sənədləşmə işinin həcmini azaldır.

“e-QRANT” sistemi vasitəsilə təqdim olunmuş layihənin son PDF versiyası (1 nüsxə Azərbaycan dilində və 1 nüsxə ingilis dilində olmaqla) **çap olunaraq** Elmin İnkişafı Fondunun icraçı direksiyasına (Bakı şəhəri, Yusif Səfərov küçəsi, 27, 9-cu mərtəbə) **həftənin iş günlərində (bazar ertəsi – cümə) saat 10:00-dan 17:00-dək** birbaşa çatdırmaqla və qeydiyyatdan keçirmək yolu ilə təqdim olunmalıdır. Çap versiyasının qəbulu üçün son tarix 2018-ci il 28 dekabr saat 17.00-dır.

Cari müsabiqə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 11 oktyabr tarixli 416 nömrəli qərarı ilə təsdiq edilmiş "Elmi fəaliyyətin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydası"na uyğun olaraq keçirilir.

Qrantların verilməsi üzrə müsabiqənin keçirilmə prinsipləri, müsabiqədə iştirak etmək üçün layihələrin verilməsi qaydaları, layihələrin ekspertizasının ümumi qaydaları,

layihələrin həyata keçirilməsi şərtləri, müsabiqələrin xüsusiyyətləri də daxil olmaqla qrantların verilməsi üzrə müsabiqənin keçirilməsi qaydaları ilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2010-cu il 25 iyun tarixli Q-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydaları"nda (http://sdf.gov.az) tanış olmaq olar.

**<u>Ümumi şərtlər:</u>**

Müsabiqənin keçirilməsi qaydaları və müddəti çərçivəsindən kənar təqdim olunan layihələr müsabiqənin texniki ekspertiza mərhələsindən qəti olaraq keçmir və elmi ekspertiza mərhələsinə buraxılmır. Müsabiqəyə təqdim edilmiş sənədlər geri qaytarılmır. Müsabiqədə iştirak məqsədilə, o cümlədən layihələrin ekspertizası mərhələsində saxta sənəd, imza və məlumatların təqdim olunması layihənin elmi ekspertizadan kənarlaşdırılmasına səbəb olur.

Elmin İnkişafı Fondu müsabiqəyə təqdim olunmuş layihələrin elmi ekspertizası işini və qalib layihələrin vaxtaşırı monitorinqini təşkil edəcəkdir.

Müsabiqədə iştirakla bağlı ciddi problemlər yarandığı təqdirdə Elmin İnkişafı Fondunun icraçı direksiyası (AZ-1025, Bakı şəhəri, Yusif Səfərov küçəsi, 27, 9-cu mərtəbə) ilə birbaşa əlaqə saxlanılması tövsiyə olunur.

Sualların elektron poçt ünvanına göndərilməsi təqdir olunur. Digər tərəfdən, layihələrin qəbulu üçün nəzərdə tutulmuş müddət ərzində e-QRANT sisteminə qoşulma və ondan istifadə üzrə, həmçinin qrant iddiaçılarına kömək və sualların cavablandırılması məqsədilə **məsləhət seminarlarının** (lazım gəldikdə, səyyar seminarlar olmaqla) keçirilməsi nəzərdə tutulmuşdur. Bu barədə əlavə məlumat Fondun internet səhifəsində dərc olunacaqdır. Seminarlarda iştirak təqdir olunur.

Əlaqə telefonu:
*(012) 489-08-94*
Elektron-poçt ünvanı: *info@elmfondu.az*
**Elmin İnkişafı Fondunun icraçı direksiyası**